# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun ölkədə bir sıra ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün 2014-cü ildə elan etdiyi "Universitet qrantı" məqsədli müsabiqəsinin (EİF/MQM/Universitet-1-2014-5(20)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə uioı8**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan iqtisadiyyatında davamlı inkişafın sosial çağırışları və sosial keyfiyyət mərhələsinə keçid mexanizminin formalaşdırılması**
Qrantın məbləği: **65 000 manat**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Rasim Tapdıq oğlu**
Layihənin nömrəsi: **EİF/MQM/Universitet-2014-5(20)-11/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **16 iyul 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 avqust 2015-ci il – 01 avqust 2016-cı il**

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | 1. Hazırlıq mərhələsində layihənin həyata keçirilməsi ilə əlaqədar təşkilati işlər həyata keçirilmiş, tədqiqatın planı tərtib edilmiş və tədqiqat vəzifələri icraçılar arasında bölüşdürülmüşdür;<br>2. Tədqiqat planına müvafiq olaraq 1-ci mərhələdə Müasir Azərbaycan iqtisadiyyatının sosial yönümlüyü qlobal çağırışlar baxımından öyrənilmiş, o cümlədən milli iqtisadiyyatın sosial keyfiyyət konsepsiyasına keçid imkanları qiymətləndirilmişdir;<br>3. Müasir qlobal çağırışların qiymətləndirilməsi aspektində - Davamlı inkişafın üç aspektli konsepsiyası kontekstində yoxsulluq probleminin həlli yolları araşdirilmiş və "Yaşıl iqtisadiyyat" konsepsiyası kontekstində isə iqtisadi artım potensialının genişləndirilməsi məsələləri öyrənilmişdir.<br>4 Layihənin "Azərbaycan iqtisadiyyatında inkişafın sosial hədəflərinin müəyyənləşdirilməsi" adlanan II mərhələsində, sosial inkişafın əhali sakinliyi prizmasından qiymətləndirilməsi, o cümlədən davamlı sosial inkişafın demoqrafik aspektləri və ölkəmizdə demoqrafik inkişafın əsas meylləri; sosial inkişafın infrastruktur təminat baxımından qiymətləndirilməsi məsələləri öyrənilmişdir.<br>5 II mərhələdə həmçinin Azərbaycanda davamlı inkişafın tələbləri baxımından sosial təminat və sosial müdafiə modelinin qiymətləndirilməsi aparılmışdır. Davamlı inkişafın hədəfləri, meyarları və əmək bazarının adekvatlığının müəyyənləşdirilməsi məsələləri tədqiq edilmişdir. |

| | |
|---|---|
| | 6. Layihənin "Azərbaycanda sosial keyfiyyət mərhələsinə keçid mexanizminin formalaşdırlması vəzifələrinin müəyyənləşdirilməsi" adlanan 3-cü mərhələsində, davamlı inkişaf və cəmiyyətin sosial fəallığının yüksəldilməsi istiqamətləri araşdırılaraq, davamlı inkişaf kontekstində həyat səviyyəsi meyarlarını müəyyənləşdirilmişdir.<br>7. III mərhələdə həmçinin, Azərbaycan iqtisadiyyatında çoxölçülü yoxsulluğun qiymətləndirilməsi aparılmış və ölkəmizdə iqtisadi artımla sosial inkişafın adekvatlığı problemləri araşdırılmışdır.<br>8 Layihənin "Azərbaycan iqtisadiyyatında davamlı inkişafın sosial keyfiyyət mərhələsinə keçid mexanizminin formalaşdırılması vəzifələri" adlanan IV mərhələsində Azərbaycanda müasir inkişaf mərhələsində davamlı inkişafın, o cümlədən ilk növbədə sosial çağırışların maliyyələşdirilməsi modelinin formalaşdırılması məsələləri araşdırılmış və bu iki bir çox hallarda fərqlənən hədəflərin əldə olunması baxımından ölkəmizin imkanları və perspektivləri dəyərləndirilmişdir.<br><br>Laiyəhin icrasının ötən dövründə neoklassik və neokeynis yanaşmalar araşdırılmış, davamlı inkişaf və sosial keyfiyyət anlayışlarının əhatə dairəsi və onları qiymətləndirilməsinə imkan verə statistik göstəriciləri hesablanması üzrə dünya təcrübəsi araşdırılmış,Azərbaycanda müvafiq əsas iqtisadi parametrlər arasında qarşılıqlı əlaqələr tədqiq edilmişdir. Aparılmış hesablamalar rəsmi statistika, o cümlədən Milli Hesablar Sisteminin , müvafiq sahələr üzrə ekspert qiymətləndirmələrinə və beynəlxalq təşkilatların məlumatlarına əsaslanmışdır. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi |
| | *100 %* |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** |
| | 1. Araşdırmalar göstərir ki, sosial rifah halının yüksəlməsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycanın yüksək inkişaf səviyyəsinə malik ölkələr qrupuna daxil olub. ***S***ürətli iqtisadi artım, eləcə də, gəlirlərin bölgüsünü təkmilləşdirən siyasət və proqramlar hesabına Azərbaycanda 2000-2014-cü illərdə yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır***.***<br>2. İqtisadi inkişafın əldə olunmuş səviyyəsi, Azərbaycanda müasir sosial siyasətin paradiqmasının dəyişməsi zəruri edir. Yeni paradiqma - sosial keyfiyyət konsepsiyasına əsaslanan yeni inkişaf məzmununu ifadə edir. Sosial keyfiyyət səviyyəsinə nail olunması cəmiyyətin, bütövlükdə sosial-iqtisadi sistemin özünün də inkişafı baxımından müəyyən şərtlərin təmin edilməsini tələb edir.<br>3 Araşdırmalar göstərir ki, davamlı inkişaf və "yaşıl" iqtisadiyyata keçid problemlərinin həlli enerji sektorunun inkişaf trayektoriyası və perspektivlərinin müəyyən olunmasından asılıdır. Belə ki, ətraf mühitin çirklənməsinə, təbii resursların tükənməsinə ən böyük təsiri energetika göstərir. Araşdırmalarımız sübut edir ki, Azərbaycanda resurs iqtisadiyyatına malik digər inkişaf etməkdə olan ölkələr kimi ekoloji prooblemlər kifayət qədər kəskindir.<br>4. Bu gün dünyada torpaqların 40%-i eroziya nəticəsində, quraqlığın artması və suvarma üçün zəruri su ehtiyatlarının tükənməsi nəticəsində deqradasiya edir.Torpaqların məhsuldarlığı azalır və proqnozlara görə 50% -ə qədər məhsulun itirilməsinə səbəb ola bilər. Dünya üzrə hər il meşələrin sahəsi 13 mln hektar azalır.Quraqlıq nökm sürən dünya əhalisinin 20%-nin yaşadığı torpaqlarda səhralaşma gedir.İqlim dəyişikliyi nəticəsində sahilyanı zonalarda yerləşən iki milyarda yaxın əhali zərər çəkə bilər. Mənfi ekoloji meyllər gələn 10 illiklərdə ərzağın qiymətinin 30-50% artmasına,qiymətlərin qeyri stabil yüksəlməsinə səbəb ola bilər ki, bu da yoxsul əhalinin vəziyyətinin daha da ağırlaşmasına gətirib çıxara bilər. Daha yüksək risklər kənd təsərrüfatı,balığçılıq, meşə təsərrüfatı, ovçuluqla məğul olan 1,3 mlrd əhalini gözləyir.<br>5 Araşdırmalar göstərir ki, Azərbaycanda son illərdə müşahidə edilən uğurlu sosial-iqtisadi |

tərəqqi, demoqrafik şəraitə və əhali sakinliyinin inkişafına da öz müsbət təsirini göstərmişdir. Hazırda ölkə əhalisinin illik artım tempi 1,3 faiz təşkil edir. Körpə və uşaq ölümü halları müvafiq olaraq 2,3 dəfə və 3,5 dəfə azalıb, doğulanda gözlənilən ömür uzunluğu isə 4,6 il artaraq 74,2 yaşa çatmışdır. Eyni zamanda araşdırmalar göstərir ki, ölkəmizdə əhalinin yaşlaşması sürətlənir. Müstəqillik dövründə Azərbaycanda yaşlaşma indeksi 26-ya qədər artmışdır. BMT-nin demoqrafik yaşlaşma şkalasına görə, hazırda Azərbaycan əhalisi qocalıq həddində hesab olunur.

6. Son illərdə müşahidə olunan demoqrafik meyllərə əsasən 2050-ci ildə Azərbaycan əhalisinin sayı 33 faiz artaraq 12.3 milyon nəfər təşkil edəcəkdir. Doğumun hazırkı artım meyllərinin 2016-2017-ci illərədək davam etməsi gözlənilir. Sonrakı dövrlərdə ölkədə doğumun səviyyəsinin tədricən azalaraq stabilləşməsi proqnozlaşdırılır. 2050-ci ildə ümumi əhali üçün doğulanda gözlənilən ömür uzunluğu 77.3 yaş, o cümlədən kişilər üçün – 75.6 yaş və qadınlar üçün – 79 yaş təşkil etməsi proqnozlaşdırılır. Hesablamalara görə, demoqrafik dəyişikliklər nəticəsində demoqrafik yük əmsalında yüksək artım baş verəcək. 2011-ci ildə bu əmsal 38.8 təşkil edirdisə, 2050-ci ildə onun 56.3-ə qədər artması proqnozlaşdırılır.

7. Araşdırmalardan göründüyü kimi son illər respublikamızda sosial müavinət və sosial yardım sisteminin formalaşdırılması və inkişafı onun beynəlxalq standartlara uyğunluğunu gücləndirir. Minilliyin inkişaf məqsədlərinə müvafiq olaraq, Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə 2003-2008 –ci illərdə bir neçə dövlət proqramı qəbul edilmişdir. BƏT-in Layiqli əmək Proqramının ikinci fazası müvafiq olaraq Azərbaycanda özü üçün Layiqli əmək Proqramının üç prioritet məqsədi seçmişdir: Koordinasiyanı gücləndirmək və əmək bazarının tənzimlənməsi üçün səmərəli mexanizm yaratmaq; İş yerlərinin və işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsi; Əhali arasında zəif, əmək qabiliyyəti aşağı olan insan qruplarının inteqrasiyası.

8. Azərbaycanda əmək ehtiyatları ilə iqtisadi fəal əhali arasındakı fərq getdikcə artır və 2014-cü ildə 1.444,1 min nəfər təşkil etmişdir. Bu meylin uzun müddət saxlanması mənfi sosial –iqtisadi nəticələrə gətirib çıxara bilər. Məşğul əhalinin sayı ilə muzdla işləyənlərin sayı arasındakı fərq isə 2014-cü ildə 3.083,3 nəfərə qədər artmışdır. Digər tərəfdən, yüksək əlavə dəyər yaradan sahələrdə məşğul əhalinin 2014-cü ildə 5,84%-i çalışır. qeyri-formal, tənzimlənməyən sahədə isə məşğulluq (67%) artmışdır.

9 Müasir dünya təcrübəsində, həyat keyfiyyəti anlayışı kimi, insanın həyat fəaliyyətinin müxtəlif aspektlərini nəzərdə tutan kompleks rifah halı mənasını kəsb edən yanaşma başa düşülür. Bu yanaşma ən azı üç əsas müddəanı ehtiva edir: a) «həyat keyfiyyəti» anlayışı fərdlərə aiddir, yəni, fərdin həyat şəraiti və onun həyatın müxtəlif tərəflərini dərk etməsi həlledici rol oynayır; b) həyat keyfiyyəti – çoxcəhətli anlayışdır: fərdin vəziyyəti təkcə onun gəliri və maddi rifah halı ilə deyil, həm də onun həyatının bir-birilərinə qarşılqlı sirayət edən digər tərəfləri fonunda qiymətləndirilir; c) həyat keyfiyyəti həm obyektiv, həm də subyektiv göstəricilərlə ölçülür. Subyektiv göstəricilər məqsədlərin və fərdlərin mövqeyinin qiymətləndirilməsi üçün zəruridir, lakin onlar həyat şəraitini obyektiv göstəricilərlə birlikdə daha ətraflı xarakterizə edir.

10 Araşdırmalar göstərir ki, həyat keyfiyyətinin inteqral indeksi- həyat səviyyəsi, sosial mühitin keyfiyyəti, ekologi mühitin keyfiyyəti, əhalinin sosial əhvalı-ruhiyyəsi kimi dörd komponent üzrə ümumi indekslərin orta cəbri qiyməti kimi hesablanır. Əhalinin həyat keyfiyyəti faktiki müəyyən edilmiş meyar göstəricilərinin, çəki əmsallarının köməyi ilə ölçülmüş son nəticələrin bazis qiymətlərinə nisbəti kimi, müəyyən metodoloji prinsiplərə əməl edilməklə hesablanır.

11. Layihə çərçivəsində aparılmış araşdırmalar göstərir ki, Azərbaycanda əhalinin həyat keyfiyyətinin müqayisəli təhlili aşağıdakılar kontekstində həyata keçirilməlidir: - əhalinin həyat keyfiyyətinin səviyyələri üzrə sahələrin reytinq qruplarının formalaşdırılması; reytinqini şərtləndirən amillərin aşkarlanması, həyat keyfiyyətində baş verən dəyişiakliklərin müəyyən edilməsi. Belə qiymətləndirmə, regional differensiyasiyanın səviyyəsini və «depressiv» regionlar qrupunu aşkar etməyə imkan verər. Bu məqsədlə hesab edilir ki, ilkin mərhələdə, ölkənin müxtəlif regionlarında və əhali qrupları üzrə həyat keyfiyyətinin monitorinqini aparmaqla, baş verən dəyişikliklərin və kəskin fərqlərin yaranmasının qiymətləndirilməsi; böyük əhali qruplarının

maraqlarına xidmət edən iri layihələrin sosial-humanitar və iqtisadi ekspertizasının aparılması məqsədə uyğundur.
12 Layihə çərçivəsində aparılmış araşdırmalar göstərir ki, yoxsulluq səviyyəsinin ölçülməsinin daha məzmunlu və geniş əhatəli üsullarından biri, "məhrumiyyət (deprivasion)" konsepsiyası əsasında, çox ölçülü amillər əsasında yoxsulluq indekisinin (ÇÖYİ) qiymətləndirilməsidir. Araşdırmalara görə görə, 2007-2014-cü illərdə ÇÖYİ və onun alt qrup blokları üzrə məlumatlar bazası əsasında Azərbaycan Respublikasında 2014-cü ildə 2006-cı il baza məlumatlarının dəqiqləşdirilməsi əsaslanaraq müəyyən olunmuş çox ölçülü amillər əsasında yoxsulluq indeksi 0.021-bərabər olmuşdur.
13 Araşdırmalar göstərir ki, davamlı inkişafın təmin edilməsində ən mühüm aspektlərdən biri dayanıqlı maliyyə təminatı hesab edilir. 2002-ci il Monterree bəyənnaməsində XXI əsrin inkişaf əsrinə çevrilməsində maliyyə resurslarının səfərbərliyi və səmərəli istifadəsi davamlı inkişafın əsas amillərindən biri kimiı qəbul edilmişdir. 2008-ci il Doxa Bəyənnaməsi və 2015-ci il Əddis-Əbəbə Fəaliyyət proqramında da həmçinin inkişafın əsas maliyyə mənbələri kimi milli və beynəlxalq resursların səfərbərliyi,o cümlədən beynəlxalq ticarət, maliyyə və texniki əməkdaşlığın inkişaf etdirilməsi, xarici borclanma və beynəlxalq maliyyə qurumlarının imkanları tövsiyə edilmişdir. 2015-ci ildə BMT-nin davamlı inkişafın maliyyələşdirilməsi üzrə Hökumətlərarası Komitəsi əsas maliyyə mənbələri kimi dövlətlərin daxili imkanlarının səfərbər edilməsi, özəl sektorun, biznesim imkanlarından, eləcə də beynəlxalq maliyyə strukturlarının resurslarından istifadə imkanları qeyd edilmişdir.
14. Davamlı inkişafın daxili mənbələrdən maliyyələşdirilməsində Azərbaycan Respublikasında əsas mənbələrdən biri kimi dövlət büdcəsi xüsusi rol oynayır. 2006-cı ildən başlayaraq büdcədən iqtisadiyyata və sosial istiqamətlərə ayrılan vəsaitlərin nisbəti 32,9:27,6 nisbətində səviyyəsində stabilləşmişdir. Keçən dövr ərzində büdcə xərclərinin 64%-dən çox hissəsi məhz respublikamızın sosial-iqtisadi inkişaf məqsədlərinin maliyyələşdirilməsinə yönəldilmişdir. Daxili resursların səfərbər edilməsi hesabına davamlı inkişafın effektiv maliyyələşdirilməsinin əsas şətrləndirici cəhəti işlək mexanizmin təmin edilməsidir.
15, Davamlı inkişafın maliyyələşdirilməsi mənbəələri sırasında beynəlxalq maliyyələşdirmə xüsusi əhəmiyyət kəsb edir. Davamlı inkişafın beynəlxalq miqyasda dövlət maliyyələşdirməsinin uğurla həyata keçirilməsinin digər cəhətlərindən biri də ayrılan vəsaitlərin sərf edilməsinə nəzarətin həyata keçirilməsidir. Özəl sektor tərəfindən beynəlxalq maliyyələşdirilmə biznes və qeyri-biznes subyektləri tərəfindən həyata keçirilir. Belə maliyyələşdirmə geniş miqyaslı maliyyə axınlarının hərəkətinə əsaslanır.
16. Müasir inkişaf mərhələsində ölkəmizdə sosial problemlərin həllində uzunmüddətli perspektiv üçün dövlətin iştirakının minimuma endirilməsi, özəl sektorun fəal iştirakının təmin edilməsi, vətəndaş fəallığının təmin edilməsi məqsədilə, insanların sosial-iqtisadi təminatlılıq səviyyəsinin yüksəldilməsi, sosial-iqtisadi resurslara əlyetərliyin təmin edilməsi; cəmiyyətdə sosial-iqtisadi institutların fəaliyyətinin genişləndirilməsi vasitəsilə sosial təcrid olunmanın qarşısını almaq, sosial inteqarsiyanı təmin etmək kimi proritetlərə malik olan yeni inkişaf strategiyasının formalaşdırılması vacibdir

| | |
|---|---|
| **4** | Layihə üzrə elmi nəşrlər |
| | 1.R. A.Hüseynov Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Xəbərləri, İl: 4, Cild 4, Aprel – İyun, 2016, səh.44-63 (ISSN 2306-8426)<br>2. R.A.Hüseynov Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində (təqaüd təminatı və sosial xidmət sistemi timsalında)<br>Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Xəbərləri |

| | |
|---|---|
| | |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Yoxdur |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Yoxdur |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Yoxdur |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Yoxdur |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Yoxdur |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Layihə üzrə 7098.71 manat dəyərində 2 kompyuter,1 noutbuk, 2printer, 4 katric və 5 xarici yaddaş diskləri EİF tərəfindən alınaraq layihə qrupuna verilmişdir. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | DİA-nın kafedra müdürü professor Ç.İsmayılov, ADİU kafedra müdüri prof.Ə.Əlirzayev, AR DSMF rəsmiləri |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Prof. Rəcəb Kök(Ankara) |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Yoxdur |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | Yoxdur |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Yoxdur |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | Yoxdur |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**

**İCRAÇI:**
**Layihə rəhbəri**
Həsənov Rasim Tapdıq oğlu

Babayeva Ədilə Əli qızı

_________________
*(imza)*
“ __” _________ 2016-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

_________________
*(imza)*
“ __” _________ 2016-cı il

_________________
*(imza)*
“ __” _________ 2016-cı il